# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA YAŞAYAN AZSAYLI XALQLARIN MUSİQİ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDAKI ROLU

*Nuranə CABBARLI*

*Məqalə Azərbaycanda yaşayan azsaylı xalqların və milli azlıqların mədəniyyətinin qorunması və inkişafında Ulu Öndər Heydər Əliyevin fikirlərinə və həyata keçirdiyi dövlət siyasətinə həsr olunub. Bu sırada azsaylı xalqların musiqi mədəniyyətinin öyrənilməsində "Musiqi dünyası" elektron nəşrlər mərkəzinin layihələri haqqında məlumat verilir.*

***Açar sözlər.*** *Azərbaycan, azsaylı xalqlar, etnik qruplar, dövlət siyasəti, musiqi mədəniyyəti, layihələr.*

"Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı, respublikanın ən başlıca sərvəti əsrlərdən bəri bu torpaqlarda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər də zəngin olar." Ulu Öndər Heydər Əliyevin bu sözləri dövlətimiz və xalqımız üçün həyat rəmzinə çevrilmişdir.

Azərbaycan çoxmillətli ölkədir, müxtəlif millətlərin və xalqların qarşılıqlı anlaşma şəraitində yaşadığı və fəaliyyət göstərdiyi dövlətdir. Müstəqil Azərbaycan dövlətinin yaradıcısı Heydər Əliyev ölkəmizdə yaşayan azsaylı xalqların dilinə, mədəniyyətinə, adət-ənənələrinə diqqətlə yanaşaraq, qayğı göstərmiş, onların mədəniyyətinin inkişafına və təbliğinə çalışmışdır. Heydər Əliyev milli məsələlərlə bağlı fəaliyyətində daim beynəlmiləlçilik ruhunu və milli azlıqlara diqqəti təbliğ edirdi. Məhz buna görə də Azərbaycanda etnomühit bütün dövrlərdə sabit olub.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana bəxş etdiyi ən mühüm dəyər Azərbaycançılıq ideologiyasıdır. Bu, eyni zamanda, multikulturalizm ideyasının da mühüm bir hissəsidir. Azərbaycançılıq - etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün xalqları bir torpaq, bir məfkurə ətrafında birləşdirir. Heydər Əliyevin belə bir ifadəsi var idi: "Biz bir yerdə dünya üçün maraqlıyıq, ayrı-ayrılıqda heç kim üçün maraqlı deyilik". Azərbaycançılıq multikulturologiya anlayışını tamamlayaraq, bu gün də daim inkişaf edir. Azərbaycançılıq ideologiyasının təbliğ edilməsi, bu ideologiya ətrafında ölkəmizdə yaşayan bütün millət və xalqların birləşdirilməsi Heydər Əliyevin ən böyük xidmətlərindən biridir. Çünki bu ideya ətrafında birləşən bir sıra azsaylı xalqlar vətənimizin çiçəklənməsində, inkişafında mühüm rol oynayırlar. Azərbaycançılıq məfkurəsinin əsas mahiyyəti də Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələrinə qarşı hər hansı bir ayrı-seçkiliyin olmaması ilə xarakterizə olunur. Bunlar eyni ailənin bərabərhüquqlu üzvləridir, birlikdə vahid amal uğrunda çalışırlar.

Azərbaycan xalqı dövləti təşkil edən etnosdan - Azərbaycan türklərindən və milli azlıqlardan - udinlərdən, ingiloylardan, saxurlardan, avarlardan, qrızlardan, xınalıqlardan, buduqlardan, tatlardan, talışlardan, ləzgilərdən və b. təşkil olunmuşdur. Bu millətlərin tarixən Azərbaycandan başqa vətənləri olmamışdır və buna görə də Azərbaycan türkləri ilə birlikdə vahid polietnik Azərbaycan millətinin nümayəndələri hesab olunurlar. Onlardan başqa respublikada ruslar, ukraynalılar, belaruslar, kürdlər, yəhudilər, yunanlar, almanlar və tatarlar yaşayırlar ki, bu milli azlıqların hər birinin muvafiq olaraq tarixi vətəni vardır və onlar Azərbaycan ərazisində yaşayan milli azlıqlara aid edilirlər.

Azərbaycanın siyasi rəhbərliyi ölkəmizdə yaşayan bütün millətlərin və xalqların inkişafı üçün mühüm işlər görür. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə rəhbərliyi dövründə milli azlıqların mədəniyyətinə diqqət və qayğı xüsusi yer tutmuşdur. Bütün bunlar Heydər Əliyevin layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilərək, yeni səviyyəyə qaldırılır.

Mədəni müxtəlifliyin dəstəklənməsi və qorunması Azərbaycanın dövlət siyasətində öz əksini tapıb. 1992-ci ildə imzalanmış "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında" fərmana əsasən onlar Azərbaycanın bərabərhüquqlu vətəndaşları hesab edilir. Qeyd edək ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra milli azlıq və etnik qrupların hərtərəfli inkişafı üçün dövlət tərəfindən zəmin yaradılıb.

UNESCO-nun 20 oktyabr 2005-ci il tarixli "Mədəni özünümüdafiə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya"ya uyğun olaraq, Azərbaycanda yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti, incəsənəti, adət-ənənələri və dilinin qorunub saxlanılması üçün məqsədyönlü iş aparılır. Prezident İlham Əliyevin 2009-cu il 26 noyabr tarixdə imzaladığı Qanunla ölkəmiz sözügedən Konvensiyaya qoşulub.

Milli azlıqlar tarixi, mədəni adət-ənənələrini qoruyub saxlamaq naminə öz mədəniyyət mərkəzlərini yaratmışlar. Bunun nəticəsidir ki, hazırda Azərbaycanda onlarla milli-mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

UNESKO-nun, Avropa Şurası və ATƏT-in "mədəni müxtəlifliyə" dair proqramlarında fəal iştirak edir, "Azərbaycan mədəni müxtəlifliyi" layihəsini həyata keçirir.

Hər il mayın 21-də Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü qeyd olunur. Həmin gün - BMT Baş Məclisi tərəfindən 2002-ci ilin dekabrında təsis edilmişdir. Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü ilk dəfə 2003-cü il mayın 21-də keçirilmişdir. UNESCO-ya üzv olan dövlətlər bu qurumun Bəyannaməsini təsdiqləməklə mədəni müxtəlifliklə əlaqədar dəyərlərin tanınmasını, qorunmasını, yerli, milli və beynəlxalq səviyyədə fəal təbliğ olunmasını öhdələrinə götürmüşlər. UNESKO-nun Paris şəhərindəki mənzil-qərargahında "Azərbaycan həftəsi" adlı mədəni tədbirlər çərçivəsində Azərbaycanda yaşayan milli azlıqlara aid foto-sərgi nümayiş etdirilir.

Etnik azlıq və qrupların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi, habelə, xalqlar arasında qarşılıqlı anlaşma və tarixi dostluq münasibətlərinin möhkəmləndirilməsi məqsədilə Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə İctimai Televiziya ilə birgə "Azərbaycan - doğma diyar" devizi altında Azsaylı Xalqların İncəsənəti festivalı keçirilir. Bu münasibətlə respublikanın müxtəlif bölgələrindən - Zaqatala, Balakən, Qax, Şəki, Quba, Qusar, Lənkəran, Astara, Masallı, Saatlı, İsmayıllı və Şabrandan azsaylı xalqların bədii kollektivləri Bakıya dəvət edilirlər. İctimai Televiziya 500-ə yaxın iştirakçısı olan festivalı ətraflı işıqlandıraraq Azərbaycanda yaşayan xalqların rəngarəngliyini bütün dünyaya nümayiş etdirir. Azsaylı xalqların adət-ənənəsini, mətbəxini, folklorunu əhatə edən filmlər və verilişlər ingilis dilinə tərcümə olunaraq Avropa tamaşaçılarına təqdim edilir. Bu tədbirlər bir daha göstərir ki, dövlətin azsaylı xalqların mədəniyyətinin inkişafına dəstəyi onlara stimul verir.

Azərbaycan dövləti çalışır ki, ölkəmizdə yaşayan milli azlıqlar öz ənənələrini yaşatsınlar və Azərbaycan mədəniyyətinin tərkib hissəsi olan bu xalqların mədəniyyətləri qorunaraq nəsildən-nəslə ötürülsün. Bu sahədə Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, digər qurumlar da müvafiq işlər görürlər. 2012-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda Azsaylı xalqların folkloru bölməsi yaradılıb. Bu da Azərbaycanda yaşayan azsaylı xalqların folklor nümunələrinin qorunub saxlanılmasında və gələcək nəsillərə ötürülməsində mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda yaşayan onlarla etnik-dini birliklərin qarşılıqlı münasibəti və mədəniyyəti - folklor, dialekt, adət, məişət tərzi, inam sistemi və s. müxtəlifliyin vəhdətini müəyyənləşdirmişdir. Onlar öz dillərindən istifadə edir, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar.

Azsaylı xalqların zəngin musiqi folkloru Azərbaycanın mənəvi mədəniyyətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Bu sahədə də bir sıra genişmiqyaslı layihələr həyata keçirilir.

"Musiqi dünyası" elektron nəşrlər mərkəzində baş redaktor, sənətşünaslıq doktoru, professor Tariyel Məmmədovun rəhbərliyi altında Azərbaycanda yaşayan azsaylı xalqların və milli azlıqların musiqi folklorunun öyrənilməsi və təbliği baxımından həyata keçirilən layihələr mühüm əhəmiyyətə malikdir.

"Azərbaycanın ənənəvi musiqi atlası" layihəsi Azərbaycan musiqi folklorunun rəngarəngliyini nümayiş etdirir. Bu saytın epiqrafı kimi Ümummilli lider Heydər Əliyevin "Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər çox zəngin olar" sözləri verilmişdir. Bu sözlər saytın əsas məqsədini əks etdirir. Məhz bu sözlər saytın geniş məzmunda müxtəlif xalqların musiqi mədəniyyətinin təqdimatına təkan vermişdir.

"Azərbaycanın ənənəvi musiqi atlası" saytının səhifələrində biz Azərbaycanda yaşayan azsaylı xalqların musiqi folklorunun nümunələri ilə tanış oluruq. Bu nümunələr respublikanın rayonları üzrə folklor ekspedisiyaları həyata keçirmiş tədqiqatçılar qrupu tərəfindən toplanmış və sistemləşdirilmişdir. Saytda ölkənin müxtəlif guşələrində yığcam halda yaşayan 30 adda millət və etnik qrupların folklor ənənələri və bilikləri öz əksini tapmışdır. Bunlar xalqların etnik təşəkkül və inkişaf tarixi, həyat tərzi, dünyagörüşü və dünyaduyumu haqqında zəngin məlumatları özündə cəmləşdirir. Ekspedisiyalar zamanı canlı ifadan yazılmış audio və video materiallar saytda musiqi folklorunun janrları üzrə təqdim olunmuşdur. Bütün bu özünəməxsus musiqi materialı ümummədəni və elmi baxımdan çox dəyərli olub, azsaylı xalqların musiqi mədəniyyətinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

"Musiqi dünyası" elektron nəşrlər mərkəzi tərəfindən həyata keçirilmiş ikinci böyük layihə "Azərbaycanda yaşayan azsaylı xalqların mahnıları. Karaoke" adlı DVD-diskin nəşri ilə bağlıdır. Bu mahnılar da iinternet saytına yerləşdirilərək, dünyanın müxtəlif ölkələrindən olan istifadəçilərə azsaylı xalqların mahnıları ilə tanış olmaq imkanı yaradır.

Toplunun ön sözündə SSRİ və Azərbaycanın xalq artisti, professor Fərhad Bədəlbəylinin qeyd etdiyi kimi, müstəqil dövlətimizin gündən-günə çiçəklənməsində azsaylı xalqların öz rolu var. "Bu da Ümummilli liderimiz Heydər Əliyevin və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən siyasətinin bəhrələridir. Bunun sayəsində müstəqil Azərbaycan Respublikası dünyanın ən tolerant ölkələrindən birinə çevrilmişdir. Azərbaycanda yaşayan hər bir xalq öz qan yaddaşı ilə nəsildən-nəslə ötürdükləri mədəniyyətlərini, folklor musiqisini bu gün də yaşadır, inkişaf etdirir. Öz dillərində danışır, öz adət-ənənələrini canlandırır, öz mahnılarını oxuyur. Bu mahnılar xalqın igid oğul və qızlarını, bərəkətli torpağı, Vətənimiz Azərbaycanı tərənnüm edir. Bu mahnılardan biz də zövq alırıq, bizim də həmin mahnıları oxumaq həvəsimiz oyanır".

Bu toplu 2011-ci ildə "Musiqi Dünyası" jurnalının baş redaktoru, sənətşünaslıq doktoru, professor Tariyel Məmmədovun başçılığı ilə jurnalın yaradıcı qrupu və Ü.Hacıbəyli adına adına Bakı Musiqi Akademiyasının professor-müəllim heyəti tərəfindən "respublikanın müxtəlif bölgələrində keçirilmiş sahə araşdırmalarının bəhrələri olub, respublikada yaşayan azsaylı xalqların

mahnı folklorunun toplanması, sistemləşdirilməsi, geniş təbliği və audioyazıya alınması məqsədini daşıyır".

"Azərbaycanda yaşayan azsaylı xalqların mahnıları" ölkəmizdə maarifçiliyin genişləndirilməsinə, gənc nəslin vətənpərvərlik ruhunun yüksəldilməsinə istiqamətlənərək, Ulu Öndər Heydər Əliyevin ideyalarının həyata keçirilməsinin bariz nümunəsidir.

Azərbaycanda və xarici ölkələrdə müxtəlif səpkili tədbirlərin keçirilməsi respublikada azsaylı xalqların adət-ənənələrinin, mədəni irsinin qorunub saxlanılması ilə bağlı olub, xalqlar arasında qardaşlığa, səmimi ünsiyyətə, mehriban birgəyaşayışa təsir göstərir. Azərbaycan dövləti tərəfindən mədəniyyətlərarası dialoqun təbliği məqsədilə həm beynəlxalq, həm də milli səviyyədə həyata keçirilən tədbirlər ölkəmizin beynəlxalq arenada nüfuzunu artırmaqla yanaşı, xalqımızın milli həmrəyliyini daha da möhkəmləndirir və ölkəmizi mədəniyyətləri qovuşduran məkan kimi beynəlxalq aləmə təqdim edir.

## ƏDƏBİYYAT


"Azərbaycanın ənənəvi musiqi atlası". http://atlas.musigi-dunya.az

"Azərbaycanda yaşayan azsaylı xalqların mahnıları. Karaoke". http://karaoke.musigi-dunya.az

Heydər Əliyev Fondu. https://heydar-aliyev-foundation.org/az

Heydər Əliyev irsini araşdırma mərkəzi. E-kitabxana. https://aliyev-heritage.org


---

## Роль Общенационального лидера Гейдара Алиева в развитии музыкальной культуры малочисленных народов проживающих в Азербайджане


*Статья посвящена изучению высказываний Общенационального лидера Гейдара Алиева о развитии культуры малочисленных народов проживающих в Азербайджане и проводимой им государственной политике. В этом контексте характеризуются проекты, созданные центром электронных изданий «Musiqi dünyası».*



***Ключевые слова.*** *Азербайджан, малочисленные народы, этнические группы, государственная политика, музыкальная культура, проекты.*


## The role of the National Leader Heydar Aliyev in the development of the musical culture of the minority peoples living in Azerbaijan


*The article is devoted to the study of the statements of the Oyushnational leader Heydar Aliyev about the development of the culture of the small peoples living in Azerbaijan and the state policy pursued by him. In this context, the projects created by the electronic publishing center "Musiqi dьnyasэ" are characterized.*



***Keywords.*** *Azerbaijan, small peoples, ethnic groups, state policy, musical culture, projects.*



Elmi rəhbər: BMA-nın professoru, sənətşünaslıq üzrə elmlər doktoru ***Cəmilə Həsənova***